Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

**5-ci istiqamət: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Azərbaycan Ermənistanı həm də diplomatik nokauta saldı



**Ciddi hərbi məğlubiyyətlə üzləşən Ermənistan rəhbərliyi yaxın tezlikdə Azərbaycanın güc yolu ilə ərazi bütövlüyünü bərba edəcəyini yaxşı başa düşür. Eyni zamanda Ermənistan onu da yaxşı sezir ki, onu məğlubiyyətdən yalnız üçüncü tərəfin münaiqşəyə müdaxiləsi xilas edı bilər. Amma bu istiqamətdə İrəvanın bütün cəhdləri faktiki olaraq iflasa uğrayıb. Bununla belə, düşmən qeyd edilən istiqamətdə hələ də sərsəm ideyalarından əl çəkmir.**

### Ermənistan Rusiyaya xəyanət edir - Moskva üçün tələ hazırlayır

Sirr deyil ki, Ermənistanın indiki halda əsas məqsədi Rusiyanı üçüncü tərəf kimi münaqişəyə cəlb edərək Azərbaycan ordusunun əks həmləsini dayandırmaqdır. Bu məqsədlə Ermənistan ərazilərindən Azərbaycanın yaşayış məntəqələrinə hələ də raket zərbələri endirilir. Gəncənin ardınca ermənilər artıq digər istiqamətlərdə də çirkin niyyətlərini həyata keçirməyə can atırlar. Artıq məlum olduğu kimi, oktyabrın 22-də səhər saatlarında Ermənistan ərazisindən Azərbaycan ərazisi əməliyyat-taktiki raket kompleksindən ballistik raketlərlə atəşə tutulub. Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin məlumatına əsasən, düşmən tərəfindən Siyəzən rayonu istiqamətində 3 raket, Qəbələ rayonu istiqamətində 2 raket və Kürdəmir rayonu istiqamətində 1 raket buraxılıb. Ermənistan silahlı qüvvələrinin hədəfi dinc əhali və mülki infrastruktur olub. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik bildirir ki, Qəbələ və Kürdəmir rayonlarını Ermənistan "Skad" raketləri ilə hədəfə alıb. Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də məsələ ilə bağlı maraqlı açıqlama verib: "Azərbaycanın möhtəşəm turizm mərkəzi sayılan və hərbi əməliyyatlar bölgəsindən çox uzaq olan Qəbələ şəhəri Ermənistanın raket zərbəsinin hədəfinə çevrilib". Onun sözlərinə görə, "Skad" tipli olduğu hesab edilən raketlər Ermənistanın Qafan və Cermuk rayonlarından atılıb: "Ermənistanın dəliliyinin həddi-hüdudu yoxdur".

İndi Ermənistanın əsas niyyəti Azərbaycanı da analoji cavab zərbəsinə təhrik etməkdir. Bununla Ermənistan Rusiyanın müdaxiləsi üçün dərhal Moskva qarşısında məsələ qaldıracaq. Amma Azərbaycanın hərbi taktikası Ermənistanın bu istiamətdə cəhdlərinin iflasla nəticələnməsinə səbəb olur. Digər tərəfdən Rusiya görür ki, Ermənistan onu münaqişəyə cəlb etməyə can atır. Bu halda münaqişəyə cəlb edilmə Kreml üçün Qafqaz bataqlığı deməkdir. Çünki belə vəziyyətdə Türkiyə və NATO da prosesə qoşulacaq. Bu da Rusiya üçün müsbət heç nə vəd etmir. O səbəbdən Rusiya ermənilərin istəyini rədd edir.

Digər tərəfdən, Moskva İrəvanın xəyanətlərini də diqqətdən qaçırmır. Belə ki, cəbhədə savaş başlayandan Rusiya prezidenti Vladimir Putinin ətəyindən yapışan, gecə-gündüz ona zəng edib Azərbaycanın hərbi əməliyyatları dayandırması üçün dilə tutmağa çalışan Nikol Paşinyan yenidən qeyri-adi addımlar atır. O artıq Rusiyaya arxa çevirib. Belə ki, Paşinyan Ermənistan prezidenti Armen Sarkisyanı Belçikanın paytaxtı Brüsselə NATO çərçivəsində keçirilən görüşlərə göndərib. Sarkisyan NATO-nun baş katibi Yens Stoltenberqlə görüşdə Ermənistanın KTMT-dən gözlədiyi dəstəyi və yardımı ala bilməməsindən gileylənib. Bu isə Ermənistan Rusiyaya növbəti xəyanət nümunəsidir. Əsgər çatışmazlığı üzündən özünün Kosovodakı və Əfqanıstandakı sülhməramlı heyətini geri çəkən Ermənistan son vaxtlar Qərbə yaxınlıq etməsi ilə də xəyanətkar olduğunu göstərir. Sorosun əlaltısı olan Nikol Paşinyanın bu gedişləri isə Rusiyadan ola biləcək mümkün köməyin də üzərindən birdəfəlik xətt çəkir. Tanınmış rusiyalı hərbi ekspert Pavel Felqenhauer də açıq şəkildə bildirir ki, Moskva Paşinyanı bəyənmir: "Ancaq qeyd etmək lazımdır ki, Rusiya bütün məsələlərə strateji yanaşır. Buna görə də Rusiya, ümumi strateji hədəflərə zidd olduğu üçün, Qarabağ münaqişəsində tərəflərindən birinin yanında olmaq istəmir. Bununla belə, hərbi əməliyyatlar davam edir, Azərbaycan işğal olunmuş rayonlarını bir-bir azad edir. Nikol Paşinyan isə hələ də İrəvanda oturub müsahibələr verir. Rusiya Ermənistan tərəfinin işğal olunmuş Azərbaycan ərazilərində davamlı məğlubiyyətlərə düçar olmasına reaksiya vermir. Bütün məsələ burasındadır ki, Qarabağ Rusiya üçün xüsusilə vacib deyil. Bu ərazilər Azərbaycanın tərkibinə qayıtsa və bununla münaqişə bitsə, o zaman çox yaxşı olar. Lakin daha yaxşı olar ki, bununla bərabər həm də Paşinyanın rejimi süquta uğrasın. İkinci Qarabağ müharibəsində belə dağıdıcı məğlubiyyətdən sonra bu qaçılmaz olacaq. Qarabağın özü isə, təkrar edirəm, Rusiya üçün ümumiyyətlə heç bir strateji əhəmiyyət kəsb etmir".

### Paşinyanın devrilməsi qaçılmazdır

İndi proseslərə rasional yanaşma sərgiləyə bilməyən Nikol Paşinyan üzləşdiyi məğlubiyyətdən yaxa qurtarmaq üçün Ermənsitan vətəndaşlarını "könüllü" adı altında cəbhəyə göndərir. Amma bu hal Ermənistanın özündə belə ciddi etirazla qarşılanır. Bir çox ermənilər açıq şəkildə Paşinyanın əli silah tuta bilməyən insanları ölümə göndərdiyini bildirir. Sosial şəbəkələrdə yayılan şərhlərin birində qeyd olunur: "Məsələni sülh yolu ilə həll edin! Bəsdir bizləri öldürdüz! Əli silah tuta bilməyən insanları ölümə göndərirsiz! Özünüz gedin savaşın. Biz hamımız vətənimizi sevirik, amma siz bizləri düşünmürsüz, ölümə göndərirsiz!". Sadə ermənilərin istəyinin əksinə olaraq, Paşinyan "Facebook" hesabında həm hazırkı mərhələdə, həm də uzun müddət Qarabağ məsələsinin diplomatik yolla həllinin mümkün olmadığını qeyd edir. Bununla o, Ermənistanın işğalçı siyasətini davam etdirdiyini və bu ölkənin hazırkı rəhbərliyinin münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmadığını açıq şəkildə etiraf edir. Lakin ermənilərin bu şəkildə məhvə göndərilməsini xalq qəbul etmir.

Paşinyanln rəqibləri də vəziyyətdən faydalanmaq istəyir. Onlar nəzərə alır ki, cəbhə məğlubiyyətləri Paşinyanın ölkə daxilində mövqelərini sarsıdıb. Erməni mediası yazır ki, bu fonda "Qarabağ klanı" xeyli fəallaşıb. Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan separatçı qurumun sabiq liderləri Bako Saakyan, Arkadi Qukasyan və Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan artıq bir araya gəlib. Onlar Ermənistanın ikinci prezident Robert Köçəryanla görüşüblər. "Qraparak" qəzetinin məlumatına görə, Köçəryan yaranmış vəziyyətdən istifadə edib Paşinyanı devirməyi düşünür. Bu səbəbdən Ermənistan daxilində yaxın tezlikdə vəziyyətin qarışması qaçılmaz sayılır. Burada nəzərə almaq lazımdır ki, Ermənistanda sosial-iqtisadi vəziyyət də gərginləşir. Müharibə həm çox sayda canlı qüvvə, həm də iqtisadi resurslar tələb edir. Ermənistanın isə buna imkanları yoxdur. Elə bu da Paşinyanın mövqelərini tam sarsıdır, rəqiblərinə onu devirmək üçün əla şans verir. Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktor müavini Darya Qrevtsova da məsələyə bu prizmadan yanaşır: "İşğal altındakı bölgələrin tədricən azad edilməsi Ermənistan rəhbərliyini həddindən artıq gərgin vəziyyətdə saxlayır. Ermənistanın baş nazirinin iqtisadi blokadanın qaldırılması və sərhədlərin demilitarizasiyası müqabilində Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycana qaytarılması və azərbaycanlıların öz torpaqlarına qayıdıb orada yaşamağa başladıqda Dağlıq Qarabağın statusu ilə bağlı qərar verilməsi ilə əlaqədar "Kazan formulu" adlandırılan sənədi imzalaması üçün kifayət qədər vaxtı var idi. Azərbaycan dəfələrlə xəbərdarlıq etdi ki, Ermənistan söz xatirinə danışıqları davam etdirərsə, status-kvonu qoruyarsa, BMT-nin Qarabağla bağlı qətnamələrinə əhəmiyyət verməzsə, o zaman Azərbaycan torpaqlarını hərbi yolla geri qaytara bilər. İndi məhz bu baş verir". Rusiyalı mütəxəssis qeyd edib ki, bu hal Ermənistan daxilində Paşinyanın mövqelərini sarsıdır. O, bu halda rəqiblərinin Paşinyanı hakimiyyətdən devirmək üçün hərəkətə keçə biləcəyini istisna etmir. Məhz belə bir vaxtda bəlli olub ki, Robert Köçəryan Moskvaya gedir. Erməni mediası qeyd edir ki, Saakyan və Qukasyan Paşinyanı ziyarət edib, onu Robert Köçəryanın Rusiyaya getməsinin zərurət olduğuna inandırmağı və əmin etməyi bacarıblar. Amma məlumata görə, Köçəryanın Moskvaya səfər etməsinin səbəbi yenidən hakimiyyəti ələ keçirmək üçün Rusiyadan razılıq almaqdır. Bu xəbər bir müddətdir erməni mətbuatının yazdığı Köçəryanın çevriliş etmək istəyi ilə bağlı iddiaları sübut edir.

### Dünya Ermənistana qarşı...

Baş verənlər fonunda Azərbaycanın daha bir mühüm uğuru onunla bağlıdır ki, indi dünya Azərbaycanın mövqeyini dəstəkləyir, onun apardığı hərbi əməliyyatların beynəlxalq hüquqa tam uyğun olduğunu bildirir. Hətta Ermənistan prezidentinin kömək üçün minnətçi düşdüyü NATO da bu xüsusda qəti mövqe ifadə edib. ABŞ-ın NATO-dakı səfiri Key Beyli Hatçison bu xüsusda qeyd edir: "Dağıq Qarabağ münaqişəsi 30 ildir ki, irinləyir. ABŞ, Rusiya və Fransadan ibarət ATƏT-in Minsk Qrupunun həmsədrləri münaqişənin ilkin mərhələsinə qayıtmasını arzu edirlər. Hansı ki, orada Azərbaycanın suveren sərhədləri var və erməni əhali bu sərhədlər çərçivəsində yaşayır. Bu razılaşdırıla və o zaman münaqişə başa çata bilər. Bu müddətdə biz hər iki tərəfi cəsarətləndiririk və mən inanıram ki, hər iki ölkənin xarici işlər nazirləri Vaşinqtonda görüşəcəklər. Ən azından, onların bu həftə Vaşinqtonda qarşıdurmanın dayandırılmasını müzakirə etmək üçün görüşməsi kimi bir plan var. Münaqişə Azərbaycanın sərhədləri və suverenlik məsələləri çərçivəsində həll olunmalıdır. Bu bizim çalışdığımız məsələdir. Rusiya da, Fransa da bu istiqamətdə çalışır. Biz ümid edirik ki, onlar bu qrupla və ya onların hər ikisinin razılaşa biləcəyi istənilən qrupla razılıq əldə edəcəklər. Bu, bəhs etdiyimiz problemin həlli üçün etibarlı olardı. Beləliklə, bu ərazidə münaqişə həllini tapardı". NATO-nun bu mövqeyini beynəlxalq ictimaiyyətin də bölüşməsi Ermənistan üçün ciddi diplomatik məğlubiyyət sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**